# bp-nin, hasilat və əməliyyatlar üzrə icraçı vitse prezidenti Qordon Birrelin Bakı Enerji Forumunda çıxışı

1 iyun 2023-cü il

## Enerji sahəsində "VƏ YA YOX, VƏ" yanaşması

- Təşəkkür edirəm, Mət.
- Zati-aliləri,
- Cənab Energetika naziri,
- Möhtərəm panel üzvləri,
- SOCAR-dan olan hörmətli dostlar və həmkarlar,
- bp-dən olan hörmətli dostlar və həmkarlar,
- Burada olmaqdan çox məmnunam.
- Xüsusən də bu il – Heydər Əliyev ilində və onun anadan olmasının 100-illiyi qeyd olunarkən.
- İllər öncə bp-nin geoloji-kəşfiyyat bölməsinin rəhbəri kimi bu ölkəyə ilk təyinatım zamanı mən Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev ilə şəxsən görüşmək şərəfinə nail olmuşam.
- Bu il özüm də 60-illik yubileyimi qeyd etdim.
- Həyatımın 30 ilini bp-də keçirmişəm.
- Bu o deməkdir ki, Azərbaycanla  qürurlu əməkdaşlığımızın 31 ilinin hər birində mən də bp-də olmuşam.
- Bir şirkət olaraq Azərbaycanın, həqiqətən də, möhtəşəm enerji tarixinin bir hissəsi olmaqdan qürur duyuruq.
- 1994-cü ildə AÇG üzrə sazişin imzalanması və ardınca üç il sonra ilk neft hasilatı.
- Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisi və tamamlanması.
- 2017-ci ildə Yeni Əsrin müqaviləsinin imzalanması.

- Dünyanın ən böyük qaz yataqlarından biri olan Şahdəniz yatağının kəşfindən tutmuş oradan ilk qazın hasil edilməsinədək.
- Milyonlarla insanın enerji təhlükəsizliyi üçün tamamilə yeni bir mənbə olan Cənub Qaz Dəhlizinin başlanmasından tamamlanmasınadək.
- Gələcək nəsillərin rifahı üçün təhsilə xüsusi diqqət yetirməklə dəstəklədiyimiz çoxsaylı sosial layihələr.
- Bu, həqiqətən də, möhtəşəm bir tarixdir və Avropaya daha çox qaz həcmlərinin nəqli də daxil olmaqla, qarşıda bizi daha çox əlamətdar hadisələr gözləyir.
- Əslində, mən bp-nin hasilat və əməliyyatlar üzrə rəhbəri kimi bu gün 1999-cu ildə Bakıya ilk gəldiyim gündən daha çox həyəcanlıyam.
- Niyə?
- Çünki dəyər yaratmaq - ölkəni dəstəkləmək, icmalara dəstək olmaq, iş yerləri yaratmaq kimi imkanlar indi həmişəkindən daha böyük və daha genişdir.
- Dostum və həmkarım, bp-nin bu regiondakı rəhbəri Qəri Counz az sonra bu barədə ətraflı danışacaq... amma icazə verin, mən qısaca olaraq öz indiki prioritetlərimizi nəzərinizə çatdırım…
- Nəhəng AÇG yatağının işlənməsinin növbəti mərhələsi olan yeni dəniz platforması inşa edirik.
- Bir neçə həftə bundan əvvəl bu yeni hasilat qurğusunun təhlükəsiz tamamlanması münasibətilə tikinti sahəmizdə Prezident İlham Əliyevi qarşılamaq bizim üçün şərəf idi.
- AÇG neft yatağının hazırda hasilatda olan laylarının altında yerləşən dərin qatlardakı qaz ehtiyatlarının qiymətləndirməsini aparırıq.
- Şahdəniz yatağından daha çox qaz əldə etmək imkanlarını araşdırırıq – Qəri Counz və SOCAR və Neft Fondundakı dostlarımız bu yaxınlarda yeni kəşfiyyat quyumuzdakı işlərin gedişatı ilə tanış olmaq üçün Şahdənizdə olublar.
- Və Cəbrayılda 240 meqavatlıq günəş elektrik stansiyası tikmək planlarımızla Azərbaycana enerji təklifimizi – bu dəfə günəş enerjisi ilə - daha da genişləndiririk.
- Biz, bu gələcəyin etibarlı bir iştirakçısı olmağımızdan qürur duyuruq - bu gün və qarşıdan gələn onilliklərdə də neft və qaz hasil etməklə

- Və həm də gələcək üçün yeni az karbonlu enerjilər yaratmaqla.
- “VƏ YA YOX, VƏ” elə bu deməkdir.
- Dünyanın ehtiyacında olduğu da məhz budur və bp-nin strategiyası da məhz bunu vermək üçün xüsusi olaraq yaradılıb.
- Əsasən neft və qaz olmaqla, bu gün üçün güvənli və əlçatan enerjinin təhlükəsiz və məsuliyyətli şəkildə hasil edilməsi.
- VƏ, eyni zamanda, sabahın enerji sisteminə keçidinə təhlükəsiz və məsuliyyətli şəkildə dəstək verilməsi – bu enerji isə az karbonlu, həm də təhlükəsiz və əlçatan olmalıdır.
- Azərbaycan bu enerji keçidi üçün əlverişli mövqedədir.
- Və bu ölkənin etibarlı enerji tərəfdaşı kimi bp şirkəti bu potensialı maksimum reallaşdırmaq öhdəliyinə tam sadiqdir.
- Təşəkkür edirəm.